## RƏSMİ SƏNƏDLƏR

**Azərbaycan Milli Elmlər Akademiyasının**

**Rəyasət Heyəti**

**QƏRAR**

Bakı şəhəri 23 sentyabr 2015- ci il

**AMEA-nın müxbir üzvü Y.Qarayevin**
**80 illik yubileyinin keçirilməsi haqqında**

2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Dövlət Mükafatı Laureatı, Əməkdar elm xadimi Yaşar Vahid oğlu Qarayevin anadan olmasının 80 ili tamam olur.

Yaşar Qarayev 1936-cı il martın 5-də Şəki şəhərində anadan olmuşdur. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. 1959-cu ildə AMEA – nın Nizami adına Ədəbiyyat və Dil İnstitunun əmək fəaliyyətinə başlayan alim elmi işçi, şöbə müdiri (1975-1981), elmi işlər üzrə direktor müavini ( 1981-1985) olmuş, 1986 - cı ildən də direktor vəzifəsində çalışmışdır.

Onun AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutuna rəhbərlik etdiyi dövrdə ədəbiyyat tarixçiliyi, mərhələ və problemləri, ədəbiyyat nəzəriyyəsi, dramaturgiya, tənqid tarixi və dünya ədəbiyyatı kontekstində onlarla fundamental araşdırmalar aparılmış, dissertasiyalar müdafiə olunmuş, elmi konfrans və müzakirələr keçirilmişdir. Görkəmli alim Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən hazırlanmış yeddicildlik “ Azərbaycan ədəbiyyat tarixi” monumental nəşrin müəlliflərindən biridir. Alim “Faciə və qəhrəman” (1965), “Səhnəmiz və müasirlərimiz” (1972), “Realizm: sənət və həqiqət” (1980), “Mirzə Fətəli Axundov” (1982), “Poeziyanın kamilliyi” (1985), “Ədəbi üfüqlər” (1985), “Meyar – şəxsiyyətdir” ( 1989), “Tarix: yaxından və uzaqdan” (1996), XIX VƏ XX yüzillər Azərbaycan ədəbiyyatı” (2002), “Min ilin sonu” ( 2003) və s. 38 monoqrafik tədqiqat əsərinin və 500-dən artıq məqalənin müəllifidir.

Yaşar Qarayev respublikanın elmi və ədəbi-mədəni inkişafında fəal çalışmış, Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları problemi üzrə Əlaqələndirmə Şurasının sədri olmuşdur.

Görkəmli alimin elmi kadrların hazırlanmasında da böyük xidmətləri olmuşdur. Onun rəhbərliyi altında ədəbiyyatşünaslıq üzrə onlarla elmlər doktorluğu və fəlsəfə doktorluğu üzrə dissertasiya müdafiə edilmişdir.

Azərbaycan ədəbiyyatının tarixi və nəzəriyyəsi, ədəbi əlaqələr, teatrşünaslıq, ədəbi tənqid və publisistika, estetika, mədəniyyətşünaslıq Yaşar Qarayevin yaradıcılığının əsas istiqamətlərini təşkil edir. Bədii metod nəzəriyyəsi, renessans və maarifçilik, cari ədəbi gedişat, ədəbiyyat tarixçiliyində, ədəbi tənqiddə analitik-nəzəri məktəb və üslub alimin yazdığı tədqiqatların əsas elmi problematikasını təşkil edir. Şərqdə realizmin genezisi, tipologiyası barədə fundamental nəzəri ideyalar, ümumtürk miqyasında həmin problemlərin həlli ilk dəfə olaraq Yaşar Qarayevin əsərlərində tədqiq olunmuşdur. Azərbaycanda milli-ədəbi tərəqqinin inkişafı, mərhələ təsnifi və bədii tipologiyası haqqında yeni konsepsiya da ilk dəfə alimin "Tarix: yaxından və uzaqdan" (1996) kitabında irəli sürülmüş və "Azərbaycan ədəbiyyatı: XIX VƏ XX yüzillər" (2002) kitabında elmi həllini tapmışdır.

O, "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə Əlaqələndirmə Şurasının (1985-2002), Ədəbiyyatşünaslıq üzrə müdafiə şurasının sədri, Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin, bir sıra elmi və bədii şuraların üzvü olmuşdur. Alim Çingiz Aytmatov Akademiyasının, Atatürk Araşdırmalar Mərkəzinin, Şəhriyar Konqresinin üzvü olmuşdur.

Yaşar Qarayevin elmi, elmi-təşkilati və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Ədəbiyyatşünas alim 1982-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, Azərbaycan Dövlət Mükafatı, "Məmməd Araz", "Həsən Turabov" mükafatları almış, "Əmək rəşadətinə görə" medalı ilə təltif olunmuşdur.

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru Yaşar Qarayevin Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafındakı xidmətlərini nəzərə alaraq və anadan olmasının 80 illik yubileyi ilə əlaqədar Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti QƏRARA ALIR:

1. AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutuna tapşırılsın ki, Yaşar Qarayevin xatirəsinə həsr olunmuş elmi sessiya keçirilsin.
2. AMEA-nın Mərkəzi Elmi Kitabxanasına və "Elm" Nəşriyyat Poliqrafiya İdarəsinə tapşırılsın:
   2.1. Yaşar Qarayevin "Seçilmiş əsərləri" 5 cilddə hazırlanaraq nəşr edilsin;
   2.2. Yaşar Qarayevə həsr olunmuş məqalələr və xatirələr toplusu nəşr olunsun;
   2.3. Yaşar Qarayevin əsərlərinin biblioqrafik göstəricisi hazırlanaraq nəşr edilsin
3. Yaşar Qarayevin anadan olduğu Şəki şəhərində görkəmli ədəbiyyatşünas alimin xatirəsinə həsr olunmuş elmi konfrans keçirilsin
4. Ədəbi prosesə həsr olunmuş tədqiqatların stimullaşdırılması məqsədilə tənqid və ədəbi proses üzrə "Yaşar Qarayev mükafatı" təsis edilsin və bu mükafat hər il "Ədəbi proses" yaradıcılıq müşavirəsində təqdim edilsin.
5. Yaşar Qarayevin adının əbədiləşdirilməsi ilə əlaqədar müvafiq dövlət orqanları qarşısında vəsalət qaldırılsın
6. Qərarın icrasına nəzarət AMEA-nın vits-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

***AMEA-nın prezidenti:*** ***akademik Akif Əlizadə***
***AMEA-nın akademik-katibi:*** ***akademik Rasim Əliquliyev***

**Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitununun işçilərinə "Azərbaycan SSR Əməkdar Elm Xadimi" fəxri adı verilməsi haqqında**

**Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin**

**FƏRMANI**

Elmin inkişafında, yüksək ixtisaslı kadrlar hazırlanmasında xidmətlərinə görə və Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitunun yaradılmasının 50 illiyi ilə əlaqədar olaraq aşağıdakılara "Azərbaycan SSR əməkdar elm xadimi" fəxri adı verilsin:

**Qarayev Yaşar Vahid oğlu –** Filologiya elmləri doktoru, direktorun müavini.

**Məmmədov Kamran Dadaş oğlu -** filologiya elmləri doktoru, şöbə müdürü

**Mirəhmədov Əziz Mirfeyzulla oğlu** – filologiya elmləri doktoru, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, institunun direktoru.

**Rüstəmova Azadə Cəfər qızı –** filologiya elmləri doktoru, şöbə müdürü.

**Seyidov Mirəli Ələkbər oğlu -** filologiya elmləri doktoru, professor, şöbə müdürü.

**Talıbzadə Kamal Abdulla Şaiq oğlu -** filologiya elmləri doktoru, professor, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, şöbə müdürü.

***Azərbaycan SSR Ali Soveti***
***Rəyasət Heyətinin sədri*** **Q.Xəlilov**

***Azərbaycan SSR Ali Soveti***
***Rəyasət Heyətinin katibi*** **R.Qaziyeva**

***Bakı şəhəri, 29 dekabr 1982-ci il.***

**ƏDƏBİYYAT, İNCƏSƏNƏT VƏ ARXİTEKTURA SAHƏSİNDƏ 1980-Cİ İL AZƏRBAYCAN SSR DÖVLƏT MÜKAFATLARININ VERİLMƏSİ HAQQINDA**

AZƏRBAYCAN KP MK-NIN VƏ AZƏRBAYCAN SSR NAZİRLƏR SOVETİNİN QƏRARI

Azərbaycan KP Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan SSR Nazirlər Soveti yanında Ədəbiyyat, İncəsənət və Arxitektura Sahəsində Azərbaycan SSR Dövlət Mükafatları Komitəsinin təklifini müzakirə edərək, 1980-ci il Dövlət Mükafatlarını aşağıdakılara verməyi qərara alırlar:

**1.** Yazıçı İmran Haşım oğlu Qasımova, rejissor Muxtar Baba oğlu Dadaşova – C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «Brejnev Bakıda» tammetrajlı sənədli filmi üçün.

**2.** Şair Əhməd Cəmilə (Əhməd Səttar oğlu Cəmilzadəyə) – son illərdə yazılmış və «Vaxtında gəlmişik bu dünyaya biz» kitabında toplanmış şerlər üçün (ölümündən sonra).

**3.** Yazıçı, pyesin müəllifi Anara (Anar Rəsul oğlu Rzayevə), rolların ifaçıları Səməndər Mənsim oğlu Rzayevə, Şəfiqə Haşım qızı Məmmədovaya – M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında göstərilmiş «Şəhərin yay günləri» tamaşası üçün.

**4.** Şair Əlağa Həsənağa oğlu Kürçaylıya – son illərdə yazılmış və «Bütövlük» kitabında toplanmış şerlər üçün (ölümündən sonra).

**5.** Yazıçı, ssenari müəllifi Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyova, quruluşçu rejissor Rasim Mirqasım oğlu Ocaqova, rəssam Kamil Nəcəf oğlu Nəcəfzadəyə, rolların ifaçıları Hacı Məmməd oğlu ismaylova, David Georgiyeviç Uplisaşviliyə – C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «Ad günü» bədii televiziya filmi üçün.

**6.** Bəstəkar Tofiq Ələkbər oğlu Quliyevə – son illərdə bəstələdiyi mahnılar və kinofilmlərə yazdığı musiqi üçün.

**7.** Heykəltəraş Əhməd Batskoyeviç Salikova – F.E.Dzerjinsikinin abidəsi üçün.

**8. Tənqidçi Yaşar Vahid oğlu Qarayevə «Poeziya və nəsr» ədəbiyyatşünaslıq tədqiqatı üçün.**

**9.** Şair Məstan Rəsul oğlu Əliyevə – uşaqlardan ötrü «Çalğıçı quşlar» və «Bax, bu da Ibrahimdir» şerlər kitabları üçün.

**Azərbaycan KP MK katibi H.Əliyev**

**Azərbaycan SSR Nazirlər Sovetinin sədri Ə.Ibrahimov**

**1980-ci il**